# Soyuq ocaq...

## *Yaxud vətəndaşlıq qayəsini əks etdirən könül pıçıltıları*

... Lirik düşüncələrin poetik ifadəsi olan şeiriyyət ədəbiyyatın son illər daha çox üz tutulan janrlarından sayılır. Bədii, fəlsəfi düşüncə və fikri ifadə etmək üçün istifadə olunan poeziyanın sevilən janrları da müxtəlif olur. Lirika bu mənada müəlliflərin, elə oxucuların da daha çox üz tutduğu janrlardandır.

Son illərin ədəbi aləmində şeiriyyətə daha çox üz tutulması inkarolunmaz faktlardandır. Yeni nəşrlərin, demək olar ki, əksəriyyəti şeir kitablarıdır.

"Ulu" Nəşriyyat Poliqrafiya Mərkəzində yenicə çapdan buraxılan "Yaşadığım illər - yaşanmış əsrlər" toplusunu da Firuzə Şahların oxucularla paylaşdığı lirik düşüncələrin, fəlsəfi fikirlərin poetik ifadəsi adlandırmaq olar.




Müəllifin həyat kredosu hesab etdiyi şeirləri mövzu və janr baxımından rəngarəngdir. Növbəti şeirlər toplusu onun vətənpərvərlik hissləri-ni, müasir dövrün problemlərinə fəlsəfi baxışlarını, sevgi və digər aspektləri özündə ehtiva edir. Burada oxucu vətənpərvərlik hissinə köklənməklə yanaşı, həm də lirik duyğularla baş-başa qalır.

Sərbəst janrda qələmə alınmış "Soyuq ocaq" şeirində bu, özünü bir qədər fərqli formada təsdiqləyir. Metaforalarla zəngin, həyatın yaşanmış və yaşanmamış lövhələrini özündə bədii cəhətdən əks etdirən şeirlər toplunu bir qədər də zənginləşdirir. Xatirə dəftərlərindən səhifələr, həmçinin oxucularla söhbət üslubunda qələmə alınan könül pıçıltıları müəllifin oxucularla görüşə gələn sayca altıncı kitabının əsas materialıdır.

Kitabda verilmiş bədii yaradıcılıq nümunələri əvvəlki toplularda dərc edilməyənlərdir. Şeirlər rus dilində qələmə alınmasına baxmayaraq, onlardakı milli kolorit müəllifin vətəndaşlıq qayəsini əks etdirir.

***"Azərbaycan"***